*Lari Kinq və Bil Qilbert*

# *İSTƏNİLƏN ŞƏXSLƏ, İSTƏNİLƏN VAXT, İSTƏNİLƏN YERDƏ NECƏ DANIŞMAQ OLAR:*

## yaxşı ünsiyyətin sirləri

Tərcüməçi:
Leyla Əliyeva

qanun nəşriyyatı

*Larry King and Bill Gilbert*

# *HOW TO TALK TO ANYONE, ANYTIME, ANYWHERE:*

## The Secrets of Good Communication

İstənilən şəxslə, istənilən vaxt, istənilən yerdə necə danışmalı? Hamımızı düşündürən sualdır. Yaxşı danışmağın sirləri doğrudan da bu üç istiqamətdən keçir. Kitab ünsiyyətin sirlərini hər üç kateqoriya üzrə ustalıqla açır. Üstəlik, mövzular bununla bitmir: utancaqlığı aradan qaldırmaq, iş görüşmələrinin açarı, ən yaxşı dialoqlar, insana xas səkkiz ortaq xüsusiyyət və daha nələr, nələr...

Kitabın uğurunu şərtləndirən əsas aml müəlliflə bağlıdır. O, televiziya və radio aparıcısı kimi CNN-də canlı proqram yayımlayır. 40 min nəfərdən artıq məşhur adam haqqında reportaj hazırlayıb. ABŞ-ın ən yaxşı reportaj müxbiri və aparıcısı sayılır. Ədəbiyyat, insan və cəmiyyət mövzularında ciddi əsərlər müəllifidir.

**Larry King and Bill Gilbert** **HOW TO TALK TO ANYONE, ANYTIME, ANYWHERE: The Secrets of Good Communication**

**Lari Kinq və Bil Qilbert** **İSTƏNİLƏN ŞƏXSLƏ, İSTƏNİLƏN VAXT, İSTƏNİLƏN YERDƏ NECƏ DANIŞMAQ OLAR: yaxşı ünsiyyətin sirləri**

Bakı, Qanun Nəşriyyatı, 2020, 176 səh.

Janr: non-fiction/özünüinkişaf
Ölçü: 145x215 mm
Cild: yumşaq
Çapa imzalandı: 14.05.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Leyla Əliyeva |
| Redaktor: | Hədiyyə Şəfaqət |
| Korrektor: | Əyyar Tahirov |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-99-52-36-828-4

© Qanun Nəşriyyatı, 2020
Copyright © 1994 by Larry King

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”
Azərbaycan Respublikasının Qanununa ziddir.

*Əməkdaşım və dostum Bob Woolf-un əziz xatirəsinə*

*L. K.*

# *Komandamızın qalan hissəsi*

Heç bir kitab yalnız bir müəllifin səyləri nəticəsində işıq üzü görə bilməz. Biz müsahibə götürüb mətni yazsaq da, komandamızın digər üzvləri də az iş görmürdülər. Odur ki, onlara, xüsusən də:

*Piter Ginnaya,* bizim Nyu-Yorkda Crown Publishers nəşriyyatındakı redaktorumuza;

*Cudi Tomasa,* Larrinin şəxsi köməkçisi və onun "Larri Kinq canlı yayımda" CNN tok-şousunun həmprodüserinə;

*Megi Simpsona,* "Larri Kinq canlı yayımda" proqramının Live-in ictimaiyyətlə əlaqələr üzrə direktoruna;

*Pet Paypera,* uzun illər Mutual Broadcasting System radiostansiyasında "Larri Kinq şousu"nun həmprodüserinə;

*Steysi Vulfa* Larrinin elə bu kitabın meydana çıxmasına səbəb olan agentinə;

*Rassel Gelenə,* uzun illər Bill Gilbertə kitab buraxmaqda yardım edən ədəbi agentə öz minnətdarlığımızı bildiririk.

# *İçindəkilər*


Giriş: Hamımız danışmalıyıq ........................................9

**1.** Söhbət 101 ........................................13

**2.** İlk addım ........................................23

**3.** Sosial söhbət ........................................39

**4.** Bütün yaxşı müsahiblərə xas olan səkkiz ümumi səciyyəvi cəhət ........................................59

**5.** Dəbdə olan sözlər və siyasi səbatlılıq ........................................71

**6.** İşgüzar danışıq ........................................83

**7.** Mənim studiyamın ən yaxşı və pis qonaqları. Onlar niyə belədirlər ........................................107

**8.** Xətalar və onları necə arxada qoymalı ........................................121

**9.** Mən nəyi necə etməliyəm? Nitqi necə söyləməli ........................................131

**10.** *Yenidən?* Kütləvi çıxışlar haqqında əlavə qeydlər ........................................145

**11.** Qəddar və qeyri-adi bir cəza: radio və televiziyada necə sağ qalmalı ........................................155

**12.** Ünsiyyət sənətinin gələcəyi ........................................173

# *Giriş: Hamımız Danışmalıyıq*

Siz nəyi seçərdiniz:

**1.** təyyarədən paraşütsüz tullanmağı,

yoxsa

**2.** nahar ziyafətində tanımadığınız biri ilə yanaşı oturmağı?

Əgər birinci cavabı seçdinizsə, heç ruhdan düşməyin. Belə olan təkcə siz deyilsiniz. Biz hər gün danışmalı oluruq, bu zaman çətinliklərlə də az rastlaşmır, bəzi hallarda bunu etdiyimizdən daha yaxşı bacaracağımızı düşünürük.

Məişətdə və ya peşəkar fəaliyyətdə uğura aparan yol danışıqlardan keçir, əgər sizin ünsiyyətdə özünüzə inamınız çatmırsa, bu yol çala-çuxurlu da ola bilər.

Mən öz kitabımı elə bu yolu hamarlamaq məqsədilə yazmışam. Budur, artıq otuz yeddi ildir, danışıq, söhbət, ünsiyyət mənim çörək ağacıma çevrilib, radio və televiziya verilişləri zamanı Mixail Qorbaçovdan tutmuş Maykl Cordana qədər müxtəlif adamlarla danışmalı olmuşam.

Bundan başqa, mütəmadi olaraq tacirlərdən başlamış polis əməkdaşlarına qədər yetərincə rəngarəng auditoriya qarşısında çıxış edirəm. Bundan sonra fikrimə uyğun olaraq sizə istər bir, istərsə də yüz adamla necə danışmaq lazım olduğu barədə danışacağam. Mənim həyatda ən böyük sevincim, ən sevimli məşğuliyyətim danışmaqdır. Bruklin uşaqlığımdan yadımda qalan erkən xatirələrdən

biri Səksən Altıncı küçənin və Bey-Parkueyin küncündə durub, ötüb keçən maşınların markalarını ucadan deməyimlə bağlıdır. O vaxt yeddi yaşım vardı. Dostlarım adımı Rupor qoymuşdular, elə o vaxtdan bəri danışıram.

Mənim Ebbets-fild stadionunda Dodcersə necə azarkeşlik elədiyim o illərdəki ən yaxşı dostum Hörb Koenin (o, indi də mənim ən yaxşı dostumdur) hələ də yadındadır. Hamıdan aralı, ucuz yerlərdə əyləşər, proqram vərəqini götürər və oyunu "şərh" eləməyə başlardım. Sonra evə gələr və dostlarıma keçən oyunu bütün təfərrüatı ilə – zarafat etmirəm, məhz bütün təfərrüatı ilə danışardım. Hörb indi də bunu xatırlamağı xoşlayır: "Əgər Larrinin Ebbets-filddə gördüyü oyun iki saat on dəqiqə davam edirdisə, Larri oyun haqqında elə o qədər danışmalıydı".

Yadımdadır, biz Hörb ilə ilk dəfə məktəb direktorunun otağında görüşdük – o vaxt hər ikimizin on yaşı vardı. Mən direktorun kabinetinə girəndə, Hörb artıq orada idi. Biz indi ora niyə göndərildiyimizi heç yadımıza da sala bilmirik, ancaq ikimiz də dərsdə söhbət elədiyimizə görə ola biləcəyini düşünürük.

Mən danışmağı sevsəm də bəzi adamların danışanda nəyə görə narahatlıq keçirdiyini yaxşı başa düşürəm. Onlar ya lazım olanı deyə bilməməkdən, ya da lazım olduğu kimi deməməkdən qorxurlar. Bir yazıçı yazmışdı: "Susub axmaq olmağımızla bağlı şübhə yaratmaq ağzımızı açıb bu barədə bütün şübhələri doğrultmaqdan yaxşıdır". Tanımadığın bir adamla danışanda və ya böyük auditoriya qarşısında çıxış eləyəndə bu cür qorxular birə min artır.

Kitabımın, sizin bu cür qorxulardan qurtulmağa kömək edəcəyinə ümid edirəm. Mən bir şeyə əminəm – düzgün yanaşmaqla istənilən adamla danışmaq olar. Siz bu kitabı oxuyub istənilən söhbətə arxayın girəcək və işgüzar söhbətdə öz fikrinizi başqalarına səmərəli şəkildə çatdırmağı öyrənəcəksiniz. Daha yaxşı, özü də böyük məmnuniyyətlə danışmağa başlayacaqsınız.

Oxuyacağınız kitabda bu məsələ ilə bağlı əmi oğlunuzun toyundan tutmuş kübar təbəqənin böyük ziyafətinə, yaxud valideynlər

və müəllimlər assosiasiyasında çıxışa qədər müxtəlif hallarda necə çıxış etmək lazım olduğu barədə məsləhətlərlə müşayiət olunan geniş məlumat verilir.

Sizə efirdə müsahibə götürdüyüm insanların təcrübəsindən və görəcəyiniz kimi mənim çox mürəkkəb bir şəraitdə əldə etdiyim təcrübədən də danışacağam.

Nitq ünsiyyətin ən mühüm formasıdır, insanlar heyvanlardan məhz nitq ilə fərqlənirlər. Hesablamalara görə insan hər gün təxminən on səkkiz min söz işlədir, mən bu rəqəmin dəqiqliyinə qəti şübhə etmirəm (haqqında danışdığım halda isə bu rəqəmi böyüdə də bilərik). Bəs onda niyə biz söhbət aparmaq bacarığımızı inkişaf etdirməyək və ondan mümkün olan yüksək fayda götürməyək?
Odur ki, gəlin, elə bu dəqiqə başlayaq. Bu səhifəni çevirin və irəli!

Ey Hörb, bir qulaq as!

Larri Kinq

# 1

## *Söhbət 101*

### *UĞURLU SÖHBƏTİN ƏSASLARI*

- **Dürüstlük**
- **Doğru münasibət**
- **Başqa şəxsə maraq**
- **Özün haqda səmimiyyət**

Danışmaq – qolf oynamaq, maşın sürmək və ya dükan saxlamaq kimi bir şeydir: bu işlə daha çox məşğul olduqca daha yaxşı alınır və daha çox zövq verir.

Ancaq əvvəlcə başlıca prinsipləri qavramaq lazımdır.

Mənə danışmaq sənətində müəyyən uğur qazanmaq nəsib olub. Bəlkə də ona görə siz bu kitabı oxuyarkən öz-özünüzə düşünürsünüz: "Əlbəttə, o, danışmağın bir əyləncə olduğunu deyə bilər. Axı özü bunu yaxşı bacarır".

Əlbəttə, məndə təbiətən söhbətlərə meyillilik var, ancaq fitri bacarığı olanlar da zəhmət çəkib onu inkişaf etdirməlidir. İstedad ustalığa məhz bu yolla çevrilir. Həyatda gördüyüm böyük beysbolçulardan biri, müasirlərimin hər hansı birindən təbiətən daha artıq istedad sahibi Ted Vilyams sıravi oyunçularla bərabər məşq edirdi. Təbiət Luçano Pavarottiyə əsrarəngiz səs bəxş etsə də, yenə də vokal dərsləri alırdı.

Söhbətlərə meyillilik mənim qanımdadır, ancaq söhbət apara bilmədiyim hallar da olub.

## İLK UĞURSUZ ÇIXIŞIM

Siz otuz yeddi il əvvəl Mayami Çimərliyi radiosunun studiyasında olsaydınız, mənim ilk səhər verilişimə şahidlik edə, hələ peşəkar danışmaq bir tərəfə, mənim burada heç duruş da gətirə bilməyəcəyimlə bağlı bir rançodan mərc gələ bilərdiniz.

Bu, 1957-ci ilin 1 may səhəri Mayami-Biçdə Vaşinqton küçəsindən bir az aralı Birinci küçədə polis bölməsinin qarşısındakı kiçik WAHR radiostansiyasında baş verib. Bundan əvvəlki üç həftə ərzində mən efirə yol tapmaq arzumu həyata keçirmək ümidi ilə həmin binanın içində var-gəl edirdim. Baş direktor Marşal Simmonds səsimin xoşuna gəldiyini (bu da heç cür məndən asılı olmayan bir məqam idi), ancaq indi boş yer olmadığını demişdi. Bu, mənim kefimi pozmadı, nə qədər lazımdırsa gözləməyə hazır idim, bunu direktora da bildirmişdim. O da əgər əlinin altında olaramsa, elə birinci açılan boş yerə məni götürəcəyinə söz vermişdi.

Mən Bruklindən Mayamiyə təzəcə gəlmişdim, bəxt üzümə gülənə qədər dayım Cek və onun həyat yoldaşının radiostansiyanın beş addımlığındakı mənzilində qala biləcəyimi bilirdim. Dayımın evinə pənah gətirmişdim, cibimdə isə bircə sent də yox idi, ancaq hər gün radioya gedər və efirdə disk-jokeylərin necə işlədiyinə, diktorların son xəbərləri necə çatdırdığına, idman şərhçisinin tamaşaçıları idman xəbərləri ilə necə tanış etdiyinə baxardım.

Mən ömrümdə ilk dəfə teletaypda AP və UPI agentliklərinə təptəzə informasiya xəbərlərinin necə gəldiyinə heyranlıqla tamaşa edirdim. Buna görə də gələcəkdə şərhçilərdən kiməsə lazım olar deyə, bir neçə qısa yazı yazdım. Beləcə üç həftə gəlib keçdi və birdən necə oldusa səhər proqramının aparıcısı işdən çıxdı. Cümə günü Marşal məni öz kabinetinə çağırıb, birinci gündən həftədə əlli dollar maaşla bu işə götürüldüyümü dedi. Efirə həftə içi 9-dan 12-yə qədər çıxacaqdım, günün ikinci yarısında son xəbərləri və idman məlumatlarını oxuyacaq, iş günüm isə saat beşdə qurtaracaqdı.

Nəhayət, arzuma yetmişdim! Mən radioda işləyəcək və səhərlər üç saatlıq veriliş aparacaqdım: üstəgəl gündüz efirində altı dəfə çıxış.